# ŞAİRİN SEVGİ DÜNYASI

**Firdovsi Fahralının yaradıcılığı əsasən lirik məhəbbət hissləri üstə köklənmişdir. Onun bu ruhda qələmə almış olduğu nümunələr müasir şeirimizdə öz ab-havası ilə oxucu qəlbində xoş duyğular oyadır. Bu mövzulu nümunələri oxuduqca insan sanki ruhən gəncləşir,təzələnir,ən ülvi hisslərlə nəfəs alır.**

Bu mövzulu şeirlərin lirik "MƏN"inin ən xarakterik xüsusiyyəti ondadır ki, o, hər addımda qürurlu görünür.Sevdiyi kimi barışmağı da bacarır. Şairin şeirlərində taleyə inamın mahiyyəti poetik bir şəkildə təsdiqlənir:

***Bitdi aramızda sevgi dastanı,***
***Əvvəlki o istək, məhəbbət hanı?..***
***Sən uca tutmuşdun şöhrəti-şanı,***
***Yenə də mən səni bağışlayıram.***

Firdovsi Fahralının əksər lirik duyğuları klassik poeziyamızın ənənələrinə söykənsə də, ruhən yeni bir donda, yeni bir biçimdə görünür. Bu mövzulu nümunələrin hər birində günümüzün ab-havası duyulur.

Misraların ləngərində sevginin insan üçün ən gözəl nemət olduğu təmkinlə aşılanır, obrazlı bir tərzdə şərh edilir.

Şair sevginin insan qəlbində silinməz izlər buraxdığını kövrək misraların axarında çox gözəl bir tərzdə açıb göstərir.Bu kövrəklik ötən illərin unudulmaz xatirələrinə çevrilir:

***Biz elə ayrıldıq, itdi izimiz,***
***Tükəndi sevdamız,bitdi sözümüz.***
***Eşqimizi dəfn eylədik özümüz,***
***Hamı görüşsə də, biz görüşmürük.***

Yuxarıda qeyd etdiyimiz kimi, Firdovsi Fahralının yaradıcılığı əsasən lirik məhəbbət hissləri üstə yoğrulsa da, bu hisslərin, bu duyğuların poetik məqamları bir-birindən seçilir, hər biri də təzə-tər görünür.

Onun qələmində məhəbbət insan ömrünü acılı-şirinli xatirələrlə naxışlayır.Bu naxışların hər birinə sevən qəlbin döyüntüləri hopur, insanı həyata, həyat gözəlliklərinə bağlayır:

***Bəxt qalamız sökülməyə,***
***Barımız kal tökülməyə.***
***Belimiz tez bükülməyə,***
***Bu dünyada, bu dünyada.***



Firdovsi Fahralının məhəbbət şeirlərindəki milli mentalitet elə ilk intonasiyadan oxucu qəlbinə hakim kəsilir. Bu şeirlərin etik-estetik dəyərləri türk dünyasının məxsusi poetik məcmusudur desək yanılmarıq.

Misralardakı abır, həya, ismət, ləyaqət və s. bu kimi əxlaqi keyfiyyətlər müəllifin hansı soyaddan boy atdığını, hansı soyaddan su içdiyini, hansı soyaddan qol-qanad açdığını uyarlı ştrixlərlə canlı bir surətdə ifadə edir:

***Yazın yağışından, qışın qarından,***
***Payız xəzanından,yayın barından,***
***Üzümüzün həyasından,arından,***
***Bu saf eşqimizi gizli saxladıq.***

***Daha pozulmuş yazıyam,***
***İlk eşqimə tamarzıyam.***
***Mən özümdən narazıyam,***
***Keçmə mənim günahımdan.***

və s.

Firdovsi Fahralının "Mən elə bilirdim", "Gecikmiş məhəbbət ", "Qayıtdı" , "Tök daşı ətəyindən", "Od olsam ", "Yaşadır məni", "Bu dünyada", "Nə canım o candı, nə yaş o yaşdı", "Sən də günahkarsan, mən də günahkar", "Sənə hədiyyələr bağışlamışdım", "Saf məhəbbət günahlara yazılmır" və s. şeirləri eyni bir mövzuda-məhəbbət mövzusunda olsa da, hər biri ayrı-ayrı poetik situasiyaların bəhrəsidir.

**Firdovsi Fahralının yaradıcılığını izləyərkən belə bir qənaətə gəlirik ki, onun qəlbi sonsuz bir sevgiylə döyünür və bu sevginin ən yüksək poetik əks-sədası hələ qabaqdadır. Yəqin ki, bu əks-sədanı da eşidəcəyik və bu əks-səda onun sevgi dünyasını daha da zənginləşdirəcək.**

**Abbas SƏMƏDOV,**
**Filologiya elmləri doktoru,**
**professor**

Ədalət.- 2020.- 12 sentyabr. S. 14.